DOI: 10.5281/zenodo.14281307

# AZƏRBAYCAN RESPUBLİKASININ VERGİ HÜQUQU

**Araz Tofiq oğlu Kərimov,**
**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Operativ Vergi Nəzarəti və Uçotun Təşkili Baş İdarəsi, rəisin birinci müavini, baş vergi xidməti müşaviri, hüquqşünas.**
e-mail: Araz.Karimov@taxes.gov.az

*Məqalədə vergi hüququna doktrinal anlayış verilir. Vergi hüququnun nizamasalma predmeti, subyektləri, mənbələri və prinsipləri nəzərdən keçirilir. Eyni zamanda, vergi hüququnun sistemi və hüquq məkanında onun mövqeyi barədə məsələ elmi kontekstdə araşdırılır. Qeyd edilir ki, Azərbaycan Respublikasının milli hüquq sistemində vergi hüququ iqtisadi hüququn yarımsahəsi statusuna malikdir.*

**Açar sözlər:** vergi hüququ, iqtisadi hüquq, nizamasalma predmeti, subyektlər, mənbələr, prinsiplər, vergi münasibətləri, milli hüquq sistemi, yarımsahə statusu.

Hər şeydən əvvəl qeyd etməliyik ki, Azərbaycan Respublikası Konstitusiyasının 4-cü fəslində vətəndaşların əsas vəzifələri müəyyən edilmişdir. Belə ki, vergiləri ödəmək vətəndaşların daşıdıqları mühüm vəzifələrdən biridir. Əsas qanunun – Konstitusiyanın 73-cü maddəsinin I hissəsində deyilir ki, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur [1]. Vergi ödəmək vəzifəsi hər bir dövlətin şəxslərinin üzərinə qoyulmuş vəzifədir. Nəzərdən qaçırmaq olmaz ki, vergi müəyyən etmək və tutmaq siyasi hakimiyyət daşıyıcısı olan dövləti xarakterizə edən, dövlətə xas olan əlamətlərdən biridir. Dövlətin bu cür əlamətlə xarakterizə olunması isə təsadüfi xarakter daşımır. Heç də sirr deyil ki, dövlət büdcəsinin əsas mənbəyini vergi təşkil edir.

Unutmaq olmaz ki, istənilən ölkədə dövlət gəlirləri içərisində vergi əsas yer tutaraq ən mühümü hesab olunur. İqtisadi nəzəriyyədə göstərilir ki, dövlət və yerli büdcələrin gəlir hissəsini, əsasən, vergi təşkil edir [2]. Odur ki, istənilən dövlət vergi sisteminin formalaşdırılmasına, eləcə də vergi siyasətinin həyata keçirilməsinə prioritet əhəmiyyət verir [3].

Vətəndaş cəmiyyətində mövcud olan ictimai münasibətlər qrupu həm də vergi ilə bağlı olaraq yaranır. Cəmiyyətdə vergi ilə bağlı əmələ gələn ictimai münasibətlər vergi münasibətləri adlanır ki, belə münasibətlərin hüquqi tənzimlənməsi müvafiq hüquq normaları vasitəsilə həyata keçirilir; həmin normaların sistemi vergi hüququ adlanır. Bu normalarla tənzimlənən vergi münasibətləri dövlətin həyata keçirdiyi vergi fəaliyyəti prosesində yaranır ki, belə fəaliyyət vergilərin müəyyən edilməsinə və tutulmasına yönəlir.

Beləliklə, vergi hüququ dedikdə dövlətin vergi fəaliyyəti sahəsində yaranan vergi münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu başa düşülür ki, həmin münasibətlər vergilər qoyulması və tutulması ilə bağlı əmələ gəlir. Onun əsas funksiyası cəmiy-

yətdəki vergi münasibətlərini tənzimləməkdən ibarətdir ki, həmin münasibətlər dövlət və vergi ödəyiciləri arasında əmələ gəlir. Deməli, cəmiyyətin inkişafında vergi münasibətləri müstəsna rola malikdir.

Eyni zamanda, qeyd etməliyik ki, vergi hüququ vergi fəaliyyəti sahəsində yaranan ictimai münasibətləri, yəni vergi münasibətlərini tənzimləyir. Məhz vergi münasibətləri vergi hüququnun nizamasalma predmetini təşkil edir. Qeyd etdiyimiz kimi, vergi münasibətləri vergi fəaliyyəti prosesində və sahəsində əmələ gələn ictimai münasibətlərə deyilir [4].

Vergi münasibətləri vergi hüququnun ibarət olduğu ayrı-ayrı hüquq normaları vasitəsilə tənzimlənir. Bu zaman vergi münasibətləri hüquqi forma alır ki, həmin forma vergi-hüquq münasibətləri adlanır. Deməli, vergi-hüquq münasibətləri vergi-hüquq normaları ilə tənzimlənən və nizama salınan vergi münasibətləridir. Fəlsəfi nöqteyi-nəzərdən onlar arasındakı münasibət «məzmun» və «forma» kimi kateqoriyalar arasında mövcud olan əlaqə kimidir. Belə ki, fəlsəfi baxımdan, əgər vergi münasibətləri məzmundursa, vergi-hüquq münasibətləri formadır.

Başqa sözlə ifadə etsək vergi-hüquq münasibətləri dedikdə vergi-hüquq normaları ilə tənzimlənən və nizama salınan vergi münasibətləri başa düşülür. Hər bir hüquq münasibəti kimi vergi-hüquq münasibətləri də quruluşca üç elementdən ibarətdir: 1) obyekt; 2) subyekt; 3) məzmun.

Vergi-hüquq münasibətlərinin obyekti odur ki, onun barəsində vergi-hüquq münasibətləri yaranır. Heç də sirr deyil ki, vergi-hüquq münasibətləri vergi barəsində və onunla bağlı olaraq əmələ gəlir. Odur ki, verginin özü vergi-hüquq münasibətlərinin obyektidir; söhbət büdcəyə köçürülən vergidən gedir [5].

Vergi dedikdə dövlət və yerli hakimiyyət (bələdiyyə) tərəfindən fiziki və hüquqi şəxslərdən məcburi surətdə alınan pul vəsaiti başa düşülür. Şəxslərdən məcburi surətdə alınan hər cür vəsait, təbii ki, vergi hesab olunmur. Bu və ya digər vəsaitin vergi hesab edilməsi üçün onun müəyyən əlamətlərə uyğun gəlməsi tələb edilir. Hüquq ədəbiyyatı səhifələrində qeyd olunduğu kimi, söhbət vergini xarakterizə edən əlamətlərdən gedir ki [6], həmin əlamətlər bunlardan ibarətdir: vergi şəxslərdən məcburi surətdə alınan pul vəsaitidir; vergi şəxslərdən əvəzsiz alınan pul vəsaitidir; vergi pul formasında ödənişdir; vergi geri qaytarılmayan pul ödənişidir; vergi dövlət və yerli büdcələrə köçürülən pul ödənişidir; vergi hüquqi əsası olan qanuni ödənişdir; vergi faktiki əsası olan ödənişdir. Bu kimi əlamətlər vergini digər pul ödənişlərindən fərqləndirməyə imkan verir. Vergi həm də belə bir əlamətlə xarakterizə edilir ki, vergi şəxslərdən alınan elə pul vəsaitidir ki, onun hansı xərclərin ödənilməsi üçün istifadə ediləcəyi qabaqcadan bilinmir və məlum olmur.

Eyni zamanda, vergi-hüquq münasibətlərinin subyektlərinə gəldikdə isə, qeyd etmək lazımdır ki, vergi-hüquq münasibətlərinin real (faktiki) iştirakçıları vergi-hüquq münasibətlərinin subyektləri adlanır. Vergi-hüquq münasibətlərinin mümkün (potensial) iştirakçılarına isə vergi hüququnun subyektləri deyilir. Onların sırasına aiddir: 1) dövlət; 2) vergi ödəyiciləri. Vergi-hüquq münasibətləri məhz dövlət və vergi ödəyiciləri arasında əmələ gəlir. Vergi-hüquq münasibətləri həm

də bələdiyyə və vergi ödəyiciləri arasında yaranır. Düzdür, vergi-hüquq münasibətlərində bilavasitə dövlət və bələdiyyə özü iştirak etmir. Bu münasibətlərdə onları müvafiq səlahiyyətli orqanlar (dövlət və bələdiyyə orqanları) təmsil edirlər. Dövlət orqanları dövlət vergilərini müəyyən edir, dövlət vergilərinin ödənilməsini tələb edir və onların ödənilməsinə nəzarət edir. Yerli özünüidarəetmə orqanları olan bələdiyyə orqanları yerli vergiləri tətbiq edir, yerli vergilərin yerli büdcələrə yığılmasını təşkil edir və onların ödənilməsi üzərində nəzarəti həyata keçirilir.

Vergi ödəyiciləri dedikdə elə şəxslər başa düşülür ki, onlar dövlət və yerli vergiləri ödəmək vəzifəsi daşıyırlar. Belə vəzifəni həm fiziki, həm də hüquqi şəxslər daşıyırlar. Onlar iqtisadi-təsərrüfat fəaliyyəti ilə məşğul olan şəxslərdir. Deməli, vergi ödəyicisi rolunda həm fiziki, həm də hüquqi şəxslər çıxış edə bilərlər.

Vergi ödəyiciləri olmayan şəxslər də vergi-hüquq münasibətlərinin iştirakçısı – vergi hüququnun subyekti ola bilər. Söhbət vergilərin ödənilməsi ilə bağlı şəxslərdən gedir. Vergilərin ödənilməsi ilə bağlı şəxslər dedikdə vergi ödəyiciləri olmayan, lakin qanuna əsasən vergilərin hesablanmasına və büdcəyə köçürülməsinə, vergi orqanlarına müvafiq məlumatın verilməsinə cavabdeh olan, habelə vergi yoxlamasının həyata keçirilməsinə köməklik göstərən işçilər başa düşülür. Onların sırasına vergi agentləri, banklar və digər kredit təşkilatları, ekspertlər və s. daxildir [7].

Beləliklə, vergi hüququnun subyektləri (vergi-hüquq münasibətlərinin real iştirakçıları) bunlardan ibarətdir: 1) dövlət (dövlət orqanları); 2) bələdiyyə (bələdiyyə orqanları); 3) vergi ödəyiciləri; 4) vergilərin ödənilməsi ilə bağlı şəxslər (onlara həm də prosessual şəxslər deyilir).

Vergi-hüquq münasibətləri üç əlamətlə xaraterizə olunur. Birinci, vergi-hüquq münasibətlərinin obyektini həmişə və bütün hallarda pul formasında olan vergi təşkil edir. İkinci, vergi münasibətləri hakimiyyət xarakterli münasibətlərdir. Unutmaq olmaz ki, vergi-hüquq münasibətləri hakimiyyət səlahiyyətinə malik olan dövlət (bələdiyyə) və vergi ödəyiciləri arasında əmələ gəlir. Dövlət (bələdiyyə) hökmən vergi-hüquq münasibətlərinin tərəflərindən biri olmalıdır. Üçüncü, vergi-hüquq münasibətləri iqtisadi xarakterli münasibətlərdir.

Vergi-hüquq münasibətlərinin məzmununa gəldikdə, qeyd etmək lazımdır ki, bu münasibətlərdə iştirak edən subyektlərin hüquq və vəzifələrinin məcmusuna vergi-hüquq münasibətlərinin məzmunu deyilir. Məsələn, vergi-hüquq münasibətlərində iştirak edən subyektlərdən biri olan dövlət (dövlət orqanları) vergilərin ödənilməsini vergi ödəyicilərindən tələb etmək hüququna malikdir. Bu, dövlətin vergi-hüquq münasibətlərində malik olduğu hüquqdur. Vergiləri ödəmək isə vergi ödəyicilərinin daşıdıqları vəzifədir. Unutmaq olmaz ki, vergiləri ödəmək hər kəsin borcudur.

Vergi hüququnun mənbələrinə gəldikdə, qeyd etməliyik ki, vergi hüququna daxil olan müvafiq hüquq normalarının ifadə və mövcudolma formaları vergi hüququnun mənbələri adlanır [8]. Vergi-hüquq normaları, adətən, normativ hüquqi akt kimi formada ifadə edilir və mövcud olur. Odur ki, normativ hüquqi aktlar vergi hüququnun əsas mənbəyidir. Söhbət, hər şeydən əvvəl, normativ

hüquqi aktların əsas növü kimi tanınan qanunlardan gedir. Qanunlar içərisində əsas rolu Konstitusiya oynayır ki, ali hüquqi qüvvəyə malik olan həmin qanun bütün hüquq sahələri, eləcə də hüquq yarımsahə və institutları üçün normativ əsas (baza) hesab olunur. Konstitusiyanın 73-cü maddəsi vətəndaşların üzərinə vergi ödəmək kimi vəzifə qoyur ki, bu, yəni vergiləri ödəmək onların daşıdıqları əsas konstitusion vəzifələrdən biridir.

Vergi hüququ üçün Konstitusiyanın həm də aşağıdakı maddələri mühüm əhəmiyyətə malikdir: 1) Milli Məclis bu və digər məsələyə dair ümumi qaydalar müəyyən edir ki, vergiləri ödəmək həmin məsələlərdən biridir (94-cü maddə); 2) Prezident dövlətin iqtisadi proqramlarını təsdiq edir (109-cu maddə); 3) Nazirlər Kabineti maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsini təmin edir (119-cu maddə) və s.

Vergi hüququnun mənbəyi olan qanunlar içərisində Azərbaycan Respublikası Vergi Məcəlləsinin (VM, 2000-ci il) [9] adı, ilk növbədə, çəkilməlidir. Azərbaycan Respublikasında yaranan vergi münasibətlərinin tənzimlənməsində bu qanun mühüm və vacib rol oynayır. Sözügedən məcəllə vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti və digər məsələləri müəyyənləşdirir. VM 2000-ci ildə qəbul olunmuş və 2001-ci il yanvarın 1-dən qüvvəyə minmişdir.

Normativ hüquqi aktların digər növü qanunqüvvəli aktlardır ki, onlar vergi münasibətlərinin tənzimlənməsində heç də az rol oynamırlar. Söhbət Prezident fərmanlarından, Nazirlər Kabinetinin qərarlarından və Vergilər Nazirliyinin qəbul etdiyi normativ əhəmiyyətli hüquqi sənədlərdən (təlimat, izah məktubları və digər aktlardan) gedir. Bu cür aktlar vergi hüququnun nizamasalma predmetini təşkil edən bu və ya digər məsələnin tənzimlənməsinə həsr olunmuşdur.

Vergi hüququnun mənbəyi qismində həm də bələdiyyələrin normativ xarakterli hüquqi aktları çıxış edir. Unutmaq olmaz ki, bələdiyyələr yerli vergilərin tətbiq olunması, yerli vergilərin yerli büdcələrə yığılmasının təşkil edilməsi və onların ödənilməsi üzərində nəzarət həyata keçirir. Təbii ki, bu kimi məsələlərlə bağlı olaraq bələdiyyələr normativ əhəmiyyətə malik olan hüquqi aktlar qəbul edir. Həmin aktlar vergi hüququnun mənbəyi hesab olunur.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr vergi hüququnun digər mənbə növüdür. Söhbət vergilərlə əlaqədar bağlanmış beynəlxalq müqavilələrdən gedir [10]; onlara beynəlxalq vergi sazişləri deyilir. Belə sazişlər, hər şeydən əvvəl, ikitərəfli səviyyədə (iki dövlət arasında) bağlanılır. İkitərəfli beynəlxalq vergi sazişləri içərisində ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər vacib yer tutur. İkiqat vergitutma dedikdə vergi ödəyicisinin əldə etdiyi gəlirdən (vergitutma obyektindən) eyni zamanda iki və ya daha çox dövlətin büdcəsinə eyni növ vergi alınması başa düşülür. Sözügedən beynəlxalq vergi sazişlərinin bağlanması ikiqat vergitutma kimi beynəlxalq aktual məsələni tənzimləmək məqsədinə xidmət edir. Odur ki, dünya təcrübəsində bu

cür beynəlxalq müqavilələrin bağlanması praktikasından geniş səviyyədə istifadə olunur. Təsadüfi deyil ki, ikiqat vergitutmanın aradan qaldırılması haqqında yüzlərlə müvafiq ikitərəfli saziş bağlanmışdır. Azərbaycan Respublikası tərəfindən indiyə kimi 56 dövlətlə (məsələn, Almaniya, Böyük Britaniya, Pakistan, Norveç, Türkiyə, İtaliya, İsrail, Moldova, Polşa, Rusiya Federasiyası, Avstriya, Özbəkistan, Çin, Gürcüstan və digər ölkələrlə) belə saziş bağlanmışdır [11]. Onlar, əlbəttə, vergi hüququnun mənbəyi olan beynəlxalq müqavilələr sırasına daxildir.

Vergi hüququnun mənbəyi olan qanunvericilik aktları vergi qanunvericiliyi adlanır. Söhbət Azərbaycan Respublikasının vergi qanunvericiliyindən gedir. Azərbaycan Respublikasının vergi qanunvericiliyi Konstitusiyadan, Vergi Məcəlləsindən və onlara uyğun olaraq qəbul edilmiş qanunvericilik aktlarından ibarətdir (VM, maddə 2).

Vergi hüququ ilə vergi münasibətlərinin hüquqi tənzimlənməsi onun özünəməxsus prinsipləri əsasında həyata keçirilir. Söhbət iqtisadi hüququn sahədaxili prinsiplərindən gedir ki, onlar vergi hüququna xas olan əsas normativ ideya və rəhbər başlanğıclardır.

Vergi hüququna xas olan prinsiplər sırasına, hər şeydən əvvəl, qanunçuluq prinsipi aiddir. Bu prinsip öz ifadəsini bunda tapır ki, vergilər qanunla müəyyən edilir; şəxslər məhz qanunla müəyyən edilmiş vergiləri ödəmək vəzifəsi daşıyırlar. Qanunçuluq prinsipi Konstitusiyanın 73-cü maddəsində ifadə edilmişdir. Həmin maddənin I hissəsində göstərilir ki, hər kəs qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini ödəməyə borcludur.

Vətəndaş, sadəcə olaraq, təkcə vergiləri ödəmək vəzifəsi daşımır. Onların borcudur ki, vergiləri tam həcmdə və vaxtında ödəsinlər. Unutmaq olmaz ki, Konstitusiyanın 73-cü maddəsinin II hissəsinə görə, hər kəs qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəməyə borcludur. Məhz bu kimi konstitusion göstərişdə vergilərin tam həcmdə və vaxtında ödənilməsi prinsipi formulə edilmişdir.

Vergi hüququ həm də belə prinsipdən çıxış edir ki, şəxslər qanunla müəyyən edilməmiş vergiləri ödəməyə məcbur edilə bilməz. Söhbət şəxslərin vergi ödənilməsinə məcbur edilməsinin yolverilməzliyi prinsipindən gedir. Bu prinsip öz normativ-hüquqi ifadəsini Konstitusiyanın 73-cü maddəsinin II hissəsində tapmışdır. Burada deyilir ki, heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergiləri və başqa dövlət ödənişlərini ödəməyə məcbur edilə bilməz.

Vergi hüququnun prinsipləri sırasına həm də müəyyənlik prinsipi daxildir. Bu prinsipə görə, hamı və hər kəs üçün aşkar və qəti şəkildə müəyyən olunmalıdır: 1) hansı növ vergi ödənilməsi; 2) verginin ödənilmə müddəti; 3) vergi ödənişinin həcmi; 4) verginin ödənilmə forması.

İkiqat vergitutmaya yol verilməməsi prinsipi də vergi hüququnun özünəməxsus prinsipi kimi tanınır. Bu prinsipə görə, eyni bir mənbədən iki dəfə vergi alına bilməz. Həmin prinsip Vergi Məcəlləsində ifadə olunmuşdur (VM, maddə 3.5). Burada deyilir ki, heç bir şəxs əldə etdiyi mənfəətdən (gəlirdən) eyni növ vergini bir dəfədən artıq ödəməyə məcbur edilə bilməz.

Vergi hüququ həm də vergitutmanın ümumiliyi prinsipini müəyyənləşdirir. Bu prinsipə görə, iqtisadi-təsərrüfat fəaliyyəti ilə məşğul olan və mənfəət (gəlir) əldə edən hər bir

şəxs vergi ödəyir. Həm fiziki, həm də hüquqi şəxslər vergi ödəyiciləridir. Unutmaq olmaz ki, iqtisadi-təsərrüfat fəaliyyətinin subyekti olan bütün fiziki və hüquqi məxslər vergi ödəmək vəzifəsi daşıyırlar.

Vergi hüququna həm də şəxslərin konstitusion hüquqlarını məhdudlaşdıran vergilərin müəyyən edilməsinin yolverilməzliyi prinsipi aiddir. Bu prinsipə görə, hər kəsin konstitusiyada nəzərdə tutulan hüquq və azadlıqlarının həyata keçirilməsinə maneçilik törədən vergilərin müəyyən edilməsi qadağan olunur. Həmin prinsip Vergi Məcələsinin 3.3-cü maddəsində formulə edilmişdir.

Bunlardan əlavə, vergi hüququna aşağıdakı digər prinsiplər də xasdır: 1) vergi ödəyicilərinin qanuni fəaliyyətini məhdudlaşdıran vergilərin müəyyən edilməsinin yolverilməzliyi prinsipi; 2) vergilərin iqtisadi cəhətdən əsaslı olması prinsipi; 3) vergilərin müxtəlifnövlü olması prinsipi; 4) vergilərin ödənilməsinin məcburiliyi prinsipi; 5) vergilərin suverenliyi prinsipi və sairə prinsiplər.

Qeyd etməliyik ki, vergi hüququ öz tərkibində vergi münasibətlərini tənzimləyən ayrı-ayrı hüquq normalarını birləşdirir. Söhbət vergi-hüquq normalarından gedir. Əlbəttə, vergi-hüquq normaları vergi hüququnun tərkibində qarmaqarışıq halda deyil, həm hüquqa, həm də məntiqə əsaslanan müəyyən ardıcıllıqla düzlənir. Vergi-hüquq normalarının məntiqi-hüquqi ardıcıllıqla yerləşməsinə vergi hüququnun sistemi deyilir.

Vergi hüququnun sistemi iki hissədən ibarətdir: 1) ümumi hissə; 2) xüsusi hissə. Vergi hüququnun ümumi hissəsi özündə elə vergi-hüquq normalarını birləşdirir ki, bu normalar bütün vergilər üçün əhəmiyyəti olan müddəalar müəyyənləşdirir (VM, maddə 1–94). Onlar vergi hüququnun xüsusi hissəsinə tətbiq olunmaq xüsusiyyətinə malikdir. Unutmaq olmaz ki, vergi hüququnun ümumi hissəsi ümumi xarakterli məsələləri tənzimləyir (məsələn – vergi ödəyicisi, vergi agenti, dövlət vergi orqanları, vergi nəzarəti, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və s.).

Vergi hüququnun xüsusi hissəsi vergilərin ayrı-ayrı növlərini tənzimləyən hüquq normalarından ibarətdir (VM, maddə 95 – 221). Bu normalar əsasında müəyyən etmək mümkün olur ki, Azərbaycan Respublikasında hansı növ vergilər tətbiq olunur. Vergi növləri bunlardan ibarətdir: 1) fiziki şəxslərin gəlir vergisi; 2) hüquqi şəxslərin mənfəət vergisi; 3) əlavə dəyər vergisi; 4) aksiz vergisi; 5) əmlak vergisi; 6) torpaq vergisi; 7) yol vergisi; 8) mədən vergisi; 9) sadələşdirilmiş vergi.

Vergi hüququnun ümumi və xüsusi hissələrə bölünməsi Vergi Məcəlləsinin sisteminə əsaslanır. Belə ki, Vergi Məcəlləsi ümumi və xüsusi hissələrdən ibarətdir.

Vergi Məcəlləsinin ümumi hissəsində vergiyə leqal (normativ) anlayış verilir, verginin növləri (dövlət, yerli vergilər və muxtar respublika vergiləri) haqqında normalar ehtiva edilir, vergitutmanın formaları müəyyənləşdirilir və digər məsələlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Buraya I–VIII fəsillər daxildir ki, bu fəsillər özlərində 1–94-cü maddələri birləşdirir.

Vergi Məcəlləsinin xüsusi hissəsində ayrı-ayrı vergi növlərini ödəyən şəxslər (vergi ödəyiciləri), vergitutma obyekti və digər məsələləri tənzimləyən normalar nəzərdə tutulmuşdur. Buraya VIII–XVII fəsillər daxildir ki, həmin fəsillər 95–221-ci maddələri əhatə edir.

Hüquq ədəbiyyatı səhifələrində mübahisə doğuran mövzulardan biri hüquq sistemində vergi hüququnun tutduğu yer barədə məsələdir. Bununla əlaqədar bir-birindən fərqli fikirlər söyləyən müəlliflərin müxtəlif mövqeləri, təbii ki, üst-üstə düşmür. Müəlliflər arasında elələri vardır ki, onlar vergi hüququnu hüququn müstəqil sahələrindən biri kimi tanıyır. Məsələn, 2003-cü ildə nəşr olunan "Vergi hüququ" dərsliyində göstərilir ki, vergi hüququ müstəqil hüquq sahəsi kimi formalaşmışdır ki, bu, cəmiyyətin inkişafında vergi münasibətlərinin müstəsna rolu ilə izah olunur [12].

Azərbaycanlı müəlliflərdən İ.V.Vəliyev də eyni mövqedə duraraq qeyd edir ki, vergi hüququ öz statusuna görə hüququn müstəqil sahəsidir. Bu hüquq sahəsinə ictimai münasibətlərin müəyyən qrupunu tənzimləyən vergi-hüquq normaları daxildir [13].

Müəlliflərdən bəzisi vergi hüququnu müstəqil hüquq sahəsi kimi tanımır. Məsələn, A.Q.Mirzəyeva məsələyə məhz bu cür yanaşaraq yazır ki, vergi hüququ maliyyə hüququnun çox mühüm bir sahəsidir [14]. Müəllif buna oxşar fikri vergi hüququ barədə yazdığı dərslikdə də söyləyir. Belə ki, həmin müəllifə görə, vergi hüququ maliyyə hüququnun aparıcı sahəsi hesab olunur [15].

Əlbəttə, müəlliflərin söylədikləri fikirlərin hamısında müəyyən dərəcədə həqiqət elementləri vardır və vergi hüququnun formalaşmasında onların söylədikləri fikirlər əhəmiyyətli rol oynayır. Lakin, buna baxmayaraq, qeyd etməliyik ki, Azərbaycan Respublikasının milli hüquq sistemində iqtisadi hüquq kimi müstəqil hüquq sahəsi ayrılmış və formalaşmışdır. Nəzərə almaq lazımdır ki, iqtisadi hüququn əsas «işi» cəmiyyətdə və ictimai həyatda yaranan iqtisadi münasibətləri tənzimləməkdən ibarətdir. İqtisadi münasibətlər isə sahibkarlıq, ticarət, bank, valyuta, kommersiya, gömrük və digər sahələrdə yaranır. İqtisadi münasibətlərin yarandığı sahələrdən biri məhz vergidir. Təbii ki, vergi sahəsində yaranan iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi iqtisadi hüquqla həyata keçirilməlidir. Bundan ötrü, yəni vergi sahəsində əmələ gələn iqtisadi münasibətləri tənzimləmək üçün iqtisadi hüquq tərkibində vergi hüququ kimi yarımsahə ayrılır. Əvvəllərdə qeyd etdiyimiz kimi, iqtisadi hüquq bir neçə yarımsahədən ibarətdir ki, vergi hüququ onlardan biridir. Unutmaq olmaz ki, vergi iqtisadi mahiyyəti olan termindir. Başqa sözlə, vergi iqtisadi anlayışdır. İqtisadi anlayış kimi, vergi məcmu milli məhsul və milli gəlirin bir hissəsinin dövlət tərəfindən məcburi surətdə toplanması və yığılmasıdır. Digər tərəfdən, vergi ümumxalq əhəmiyyətə malik olan sosial-iqtisadi məsələlərin həll edilməsində böyük rol oynayır. İqtisadi baxımdan verginin mahiyyəti də məhz bundan ibarətdir.

Göstərdiklərimizdən əlavə, vergidən dövlətin iqtisadi inkişafına təsir göstərən alət kimi istifadə olunur. Onun müasir şəraitdə iki əsas funksiyası fərqləndirilir ki, onlardan biri fiskal, digəri isə iqtisadi funksiyadır [16]. Fiskal funksiyanın mahiyyəti bu funksiyadan istifadə etməklə dövlət pul fondları formalaşdırır. Fiskal funksiya verginin əsas funksiyası hesab edilir.

Verginin iqtisadi funksiyasına gəldikdə, qeyd etməliyik ki, milli gəlirin bölüşdürülməsində vergidən alət kimi istifadə olunur. Verginin iqtisadi funksiyası özünü həm də bunda göstərir ki, sahibkarlar və iqtisadi fəaliyyətin digər subyektləri vergidən istifadə

etməklə mal istehsal edir, xidmət göstərir və iş görürlər, bir sözlə, öz fəaliyyətlərini genişləndirirlər. Digər tərəfdən, vergilər yolu ilə iqtisadi münasibətlərin tənzimlənməsi həyata keçirilir. Deyilənlər onu göstərir ki, vergi və iqtisadi münasibətlər bir-birilə (iqtisadiyyatla) sıx surətdə bağlı olan anlayışlardır. Bu bağlılıq nəticəsində beynəlxalq vergi hüququ beynəlxalq iqtisadi hüququn yarımsahəsi kimi tanınır. Buna uyğun olaraq, Azərbaycan Respublikasının daxili (milli) hüquq sisteminə müstəqil hüquq sahəsi kimi daxil olan iqtisadi hüququn tərkibində «vergi hüququ» adlı yarımsahə ayrılmışdır. Yaddan çıxarmamalıyıq ki, beynəlxalq (publik) hüququn müstəqil sahələrindən biri kimi tanınan beynəlxalq iqtisadi hüquq bir neçə yarımsahədən ibarətdir; beynəlxalq vergi hüququ həmin yarımsahələrdən biridir [17].

Vergi hüququnun öz hüquqi təbiətinə görə iqtisadi hüququn yarımsahəsi olması həm də belə bir amillə şərtlənir ki, vergi hüququnun subyekti olan vergi ödəyiciləri iqtisadi-təsərrüfat fəaliyyətinin subyektləridir. İqtisadi-təsərrüfat fəaliyyəti isə iqtisadi hüquqla tənzimlənən məsələlərə aiddir.

## İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR VƏ İQTİBASLAR


1. Azərbaycan Respublikası Konstitusiyası. Baki, ”PG” nəşriyyatı, 2014, 52 s.
2. Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с.573.
3. Vergilərin təşəkkül tapması və tarixi barədə ətraflı bax: məsələn, Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı, 2013, s.10-45.
4. Ətraflı bax: Əliyev E.Ə., Hüseynova F.E., Qəmbərov H.D. İqtisadi hüquq. Dərslik. Bakı, 2019, s.478.
5. Vergi-hüquq münasibətlərinin obyekti hüquq ədəbiyyatında mübahisə doğuran məsələlərdən biridir. Bu barədə söylənilən fikirlərlə bağlı daha ətraflı bax: Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı, 2013, s. 63-64.
6. Ətraflı bax: məsələn, Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s.197.
7. Vəliyev D.Ə., Balakişiyeva Y.H. və b. Vergi hüququ. Dərslik. Bakı, 2003, s.121.
8. Vergi hüququnun mənbələri barədə ətraflı bax: Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı, 2013, s.56-60.
9. Azərbaycan Respublikasının Vergi Məcəlləsi / Buraxılışa məsul: E.M.Əfəndiyev. Bakı, 2014, 296 s.; URL:http//www.taxes.gov.az – 29.06.2024-cö il.
10. Daha ətraflı: Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 628-632.
11. Ətraflı bax: Aslanbəyli B.Ə. İkiqat vergitutmanın aradan qaldırılmasının beynəlxalq hüquqi aspektləri (Azərbaycan Respublikasının timsalında ). Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Bakı, 2024, 32 s.
12. Vəliyev D.Ə., Balakişiyeva Y.H. və b. Vergi hüququ. Dərslik. Bakı. 2003, s.18.
13. Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı, 2013, s.54.
14. Mirzəyeva A.Q. Maliyyə hüququ. Dərslik. Bakı, 2008, s.153.
15. Mirzəyeva A.Q. Azərbaycan Respublikasının vergi hüququ. Dərslik. Bakı, 2007, s.129.
16. Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с.573.
17. Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 625-627.

## НАЛОГОВОЕ ПРАВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Араз Тофик оглу Керимов,**
**главный советник налоговой службы, юрист-правовед.**

В статье дано доктринальное понятие налогового права. Рассмотрены предмет, субъекты, источники и принципы регулирования налогового права. При этом в научном контексте исследуется вопрос о системе налогового права и ее положении в правовом пространстве. Отмечается, что в национальной правовой системе Азербайджанской Республики налоговое право имеет статус подотрасли экономического права.

**Ключевые слова:** налоговое право, экономическое право, предмет регулирования, субъекты, источники, принципы, налоговые отношения, национальная правовая система, статус подотрасли.

## TAX LAW OF THE REPUBLIC OF AZERBAIJAN

**Araz Tofig oghlu Karimov,**
**chief advisor of the tax service, lawyer.**

The article provides a doctrinal understanding of tax law. The subject, subjects, sources and principles of regulation of tax law are reviewed. At the same time, the issue of the system of tax law and its position in the legal space is investigated in a scientific context. It is noted that in the national legal system of the Republic of Azerbaijan, tax law has the status of a sub-field of economic law.

**Key words:** tax law, economic law, subject of regulation, subjects, sources, principles, tax relations, national legal system, sub-field status.

## AZERBAYCAN CUMHURİYETİ VERGİ HUKUKU

**Araz Tofig oğlu Kerimov,**
**vergi dairesi başdanışmanı, avukat.**

Bu makale vergi hukukuna ilişkin doktrinsel bir anlayış sunmaktadır. Vergi hukukunun konusu, konuları, kaynakları ve düzenleme ilkeleri incelenmektedir. Aynı zamanda vergi hukuku sistemi konusu ve hukuk alanındaki konumu bilimsel bağlamda araştırılmaktadır. Azerbaycan Cumhuriyeti'nin ulusal hukuk sisteminde vergi hukukunun ekonomi hukukunun bir alt dalı statüsünde olduğu belirtilmektedir.

**Anahtar kelimeler:** vergi hukuku, ekonomi hukuku, düzenleme konusu, konuları, kaynakları, ilkeleri, vergi ilişkileri, ulusal hukuk sistemi, alt alan durumu.

*MÜSAHİBƏ*

# BAKIDA DRON RADARLAR, "FORMA 4", NÖMRƏ SATAN DƏLƏDUZLAR, ŞÜURALTI TƏBLİĞ ETDİYİMİZ NEQATİV

***"Azərbaycanda piyadavurmalar ümumi yol-nəqliyyat hadisələrinin bir-iki faizini təşkil edərsə, o zaman ölkəmiz avtoqəzaların sayının az olduğu ölkələr sırasında ilk yerlərdə olar. Belə olan halda biz deyə bilərikmi ki, bizdə sürücülərin bilik səviyyəsi aşağıdır? Piyadaların təhlükəsizliyi üçün onların maarifləndirilməsinə, yol hərəkəti ilə bağlı biliklərinin artırılmasına, eyni zamanda, yol infrastrukturunun piyadalar üçün daha təhlükəsiz qurulmasına ehtiyac var. Təəssüf ki, bu gün üçün qayda pozan piyadalar sırasında şagirdlər və tələbələrin də sayı kifayət qədər çoxdur. Düşünün, yüksək balla universitetə qəbul olan tələbə yol hərəkəti qaydalarını bilmir və müəyyən edilməyən yerdən keçdiyinə görə yol-nəqliyyat hadisəsinin qurbanı olur. Ömür boyu çəkilən əziyyət, qarşıda onları gözləyən karyera puç olur, bundan da önəmlisi - ailəsinə yaşatdığı sevinc ağır bir kədərə çevrilir. Həyatda istənilən mövzuda qaydaları bilmək, məsuliyyətli davranmaq önəmlidir".***

***Bunu Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin Hərəkətin Təhlükəsizliyinin Təbliği və İctimai Qurumlarla Əlaqə Şöbəsinin rəisi polkovnik-leytenant Rövşən Tağıyev deyib. Onunla müsahibəni təqdim edirik.***

**– Rövşən bəy, sürücülərin son dövrlər ən çox şikayət etdikləri məqamlardan biri baş verən yol-nəqliyyat hadisələri zamanı qəzanın qiymətləndirilməsi məsələsidir. Belə ki, sığorta şirkətlərinin zərərçəkmişə ödəniş etməsi üçün gərəkli olan, "Forma 4" deyilən elektron sənədin göndərilməsi, bəzən, aylarla yubanır. Bu sənədin gecikdirilməsi nə ilə bağlıdır?**

– Bu tip sorğular bizə də ünvanlanır. "Forma 4" sənədi 10 gün müddətində elektron qaydada sığorta şirkətinə göndərilir. Eləcə də, sürücülərin hər birinə xüsusi kod verilir və o kod əsasında sığorta şirkətinə yaxınlaşaraq "forma 4" sənədinin gəlib-gəlmədiyini öyrənə bilirlər. Əgər müddət pozuntusu olarsa, həmin sürücülərin bizə müraciət etmələri tövsiyə olunur. Biz məsələni dərhal araşdıracağıq.

**– Bəzi ekspertlər ölkəmizdə yol-nəqliyyat hadisələrinin qonşu ölkələrlə müqayisədə dəfələrlə çox olduğunu və bunun da səbəbinin sürücülərin yol hərəkətinə dair bilik səviyyələrinin aşağı olması ilə əlaqələndirirlər. Bu barədə nə deyə bilərsiniz?**

– Təəssüf ki, belə şəxslər var və onların dedikləri hansısa təhlillər əsasında səsləndirilən fikirlər deyil, sadəcə, öz şəxsi düsüncələridir. Yol – elə bir sahədir ki, onunla bağlı hər insanın öz şəxsi fikirləri ola bilər, ancaq bunu ekspert fikri kimi səsləndirmək doğru olmaz. "Ekspert" sözü böyük bir mənanı ifadə edir, ekspert olmaq hansısa sahədə savada, uzunmüddətli təcrübəyə sahib olmağı tələb edir.

Həm Azərbaycanda, həm də Avropanın bir çox ölkələrində yol-nəqliyyat hadisələrinin sayı ictimaiyyət üçün əlçatandır və aylıq, rüblük, yarımillik və illik olaraq açıqlanır. Hər kəs bu məlumatları rahatlıqla əldə edə, hər 100000 insana və ya hər 100000 nəqliyyat vasitəsinə düşən qəza sayını rahatlıqla hesablayıb qəza əmsalını çıxara bilər. Bizdə olan qəzaların sayı, səsləndirildiyi kimi, Avropa ölkələrində olan qəza sayından çox deyil, eləcə də ölkəmizdə yol hərəkəti təhlükəsizliyi səviyyəsi heç də həmin ölkələrdən aşağı deyil.

Ölkəmizdə yol-nəqliyyat hadisələrinin sayına ən böyük təsiri məhz piyadavurma təşkil edir. Yol hərəkəti təhlükəsizliyi baxımından qabaqcıl ölkələrdə piyadavurma halları ümumi yol-nəqliyyat hadisələrinin maksimum bir-iki faizini təşkil etsə də, bizdə bu, 50 faizdən yuxarıdır. Düşünün, yollarda dünyasını dəyişən hər iki nəfərdən biri piyadadır. Bu hadisələrin də başlıca səbəbi piyadalarımızın qanunvericiliklə onların üzərinə qoyulmuş hüquq və vəzifələri yetərincə bilməmələri və yolu haradan gəldi keçmələridir. Bu sahədə sürücülərdən daha çox, piyadaların maarifləndirilməsinə ehtiyac var.

Çünki bizdə də piyadavurmalar ümumi yol-nəqliyyat hadisələrinin bir-iki faizini təşkil edərsə, o zaman ölkəmiz avtoqəzaların sayının az olduğu ölkələr sırasında ilk yerlərdə olar. Belə olan halda biz deyə bilərikmi ki, bizdə sürücülərin bilik səviyyəsi aşağıdır? Piyadaların təhlükəsizliyi üçün onların maarifləndirilməsinə, yol hərəkəti ilə bağlı biliklərinin artırılmasına, eyni zamanda, yol infrastrukturunun piyadalar üçün daha təhlükəsiz qurulmasına ehtiyac var. Təəssüf ki, bu gün üçün qayda pozan piyadalar sırasında şagirdlər və tələbələrin də sayı kifayət qədər çoxdur. Düşünün, yüksək balla universitetə qəbul olan tələbə yol hərəkəti qaydalarını bilmir və müəyyən edilməyən yerdən keçdiyinə görə yol-nəqliyyat hadisəsinin qurbanı olur. Ömür boyu çəkilən əziyyət, qarşıda onları gözləyən karyera puç olur, bundan da önəmlisi - ailəsinə yaşatdığı sevinc ağır bir kədərə çevrilir. Həyatda istənilən mövzuda qaydaları bilmək, məsuliyyətli davranmaq önəmlidir.

**– Bəzi saytlar var ki, avtomobillər üçün nömrələr satırlar. Daha da maraqlısı odur ki, bir nömrəni 10-15 min manata təklif edirlər. Bu qanunidirmi?**

– Əlbəttə ki, xeyr. Bəzi saytlar var, hətta sosial şəbəkələrdə səhifələr də var ki, nömrə satışı adı ilə insanları aldatmağa çalışırlar. Bu kimi hallar barədə bizə çoxsaylı müraciətlər daxil olurdu. Kimlərsə bu səhifələrə aldanıb, nömrələri almaq üçün beh verirdilər. Sonda da məlum olurdu ki, bu nömrələr başqa şəxslərə məxsusdur və onların avtomobillərinin nömrələrinin satışa çıxarılmasından heç xəbərləri yoxdur.

Ümumiyyətlə, nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanı ayrıca alqı-satqının və ya başqa əqdin (bağışlama, dəyişmə və s.) predmeti ola bilməz. "Yol hərəkəti haqqında" Qanunun 27 və 29-

cu maddələrinə görə, avtomobil üzərində nömrə ilə satıla bilər. Amma "mən yalnız nömrəni satıram, avtomobili yox" kimi bir iddia qanunla qadağandır.

– **Heç bu istiqamətdə şikayət əsasında qanunsuz olaraq başqalarına məxsus avtomobil nömrələrini satışa çıxaran şəxs və ya şəxslər aşkarlanıbmı?**

– Bəli, bu istiqamətdə aparılan araşdırmalar nəticəsində bəzi şəxsləri müəyyən etdik və onlar barəsində qanunamüvafiq tədbirlər görüldü.

Tərəfimizdən aşkar edilən "avtomobil nömrə satışı" adı altında "Instagram" və "TikTok" sosial şəbəkələrində kifayət qədər izləyicisi olan səhifələrin sahibi izahatında insanların diqqətini çəkən avtomobil nömrələrini ağlına gələn qiymətlərlə səhifələrdə yerləşdirməkdə məqsədinin sosial şəbəkə səhifələrinin reytinqini və izləyici sayını artırmaq olduğunu, müəyyən izləyici sayı qazandıqdan sonra onların adını dəyişərək başqa şəxslərə satdığını etiraf etdi.

– **Son vaxtlar yenə nəqliyyat vasitəsini nömrəsiz idarə edən sürücülərin sayı artıb. Sürücüləri buna vadar edən nədir?**

– Əlbəttə, məqsəd – qayda pozsalar da, xüsusi texniki vasitələr tərəfindən aşkarlanıb cərimələnməməkdir. Bu cür sürücülərə qarşı ciddi mübarizə aparılır. Nəqliyyat vasitəsinin nömrəsini çıxardığınız zaman hər hansı yol-nəqliyyat hadisəsi törətdikdə nəqliyyat vasitəsinin kimə məxsus olduğunu müəyyənləşdirmək çətinləşir. Təbii ki, bu da, zərərçəkənlərin haqlı narazılığına səbəb olur. Nömrə nişanları birmənalı olaraq avtomobilin üzərində olmalıdır. Buna əməl edilməməsi həm qanunlara, həm də hərəkət iştirakçılarına qarşı hörmətsizlikdir.

– **Bahalı avtomobillərin səsgücləndirici sistemləri zavodda tərtib edilir. Bəzən, sürücülər 100-300 min manatlıq avtomobillərini şəhərdə "rahat" sürə bilmədiklərindən tez-tez nəqliyyat vasitələrinin polis tərəfindən cərimə meydançasına aparıldığını iddia edirlər. Burada belə bir sual yaranır ki, əgər bu nəqliyyat vasitələrinin respublika ərazisində sürülməsi qadağandırsa, aidiyyəti üzrə ölkəyə gətirilməsinə niyə icazə verilir?**

– Avtomobil zavod tərəfindən hansı konstruksiyada buraxılıbsa, onda hər hansı bir məhdudiyyət tətbiq olunmur. Yox, əgər siz sonradan səsgücləndirici qurğular quraşdırıb, səsboğucuya kənar müdaxilə edərək səsgücləndiricilər, partlama səsi çıxaran qazanlar qoşursunuzsa, bu, qanunla qadağandır. Çünki bu, digər sürücülərin narazılığına səbəb olmaqla yanaşı, onların diqqətini də yayındırır. Elə sürücü ola bilər ki, həmin səs onu qorxudar və o, ani manevrlə qəza törədə bilər. Düşünün, işıqforda dayandığınız yerdə yaxınlaşan nəqliyyat vasitəsi güclü partlayış səsləri çıxarır. Hərəkət iştirakçıları arasında uşaqlar, yaşlı şəxslər, hamilə qadınlar da var, bu isə, onlara, təbii ki, mənfi təsir edir.

– **Sosial şəbəkələrdə operativ nəqliyyat vasitələrinə xas olan sayrışan işıqları şəxsi avtomobillərinə quraşdıran sürücülərin videolarına da rast**

**gəlinir. Həmin sürücülər digər hərəkət iştirakçılarını çaşdıraraq onlardan ehtiyac oldu-olmadı yol istəməklə qəza şəraiti yaradırlar. Bu kimi hallarla necə mübarizə aparırsınız?**

– Belə avadanlığı alan və avtomobilinə quraşdıran şəxs düşünməlidir ki, bu ona problem yaradacaqsa, buna görə yüksək məbləğdə cərimə ödəyəcəksə, belə qurğunu niyə alsın və quraşdırsın? Biz, demək olar ki, bütün platformalarda bunu səsləndiririk ki, vəzifəsindən, statusundan asılı olmayaraq, yollarda hər kəs bərabər hüquqa malikdir və yol hərəkəti ilə bağlı qaydalara riayət etməyə borcludur.

– **Avtoxuliqanlıq edən sürücülərlə bağlı reydlər davam edirmi? Təəssüf ki, belə sürücülər, bəzən, etdikləri əməlləri fəxr edilməli hal kimi sosial platformalarda paylaşırlar. Onlara qarşı mübarizə aparılırmı?**

– Avtoxuliqanlıq edən şəxslərə qarşı çox ciddi mübarizə tədbirləri aparılır və aparılmalıdır da. Avtoxuliqanlıq – ictimai təhlükəli əməldir. Bu, insan həyatını təhlükəyə atmaq deməkdir. Bəzilərinin diqqət çəkmək və ya fərqlənmək istəkləri kimlərinsə həyatına son qoyur. Kimlərsə belə şəxslərə "cavandır" deyərək haqq qazandırmağa çalışırlar. Cavandır deyə avtomobili bu cür idarə etməli və insanların həyatına son qoymalıdır? Bu, yolverilməzdir!

Bu tərz videoların sosial şəbəkələrdə geniş yayılması isə ən təəssüfləndirici haldır. Biz çox zaman sosial şəbəkələrdə nümunəvi sürücülər, eləcə də respublika yollarında müşahidə edilən müsbət hallarla bağlı məlumat paylaşarkən onun geniş ictimaiyyətə çatması üçün heç kim dəstək olmur. Görürük ki, paylaşılma minimumdur. Çünki sosial şəbəkə istifadəçiləri tərəfindən belə müsbət hallar o qədər də maraqla qarşılanmır. Ancaq kimsə hansısa bir qayda pozuntusunu çəkib paylaşanda baxırıq ki, onun izlənməsi bir saat ərzində, bəlkə də, yüz min baxışı keçir. İstifadəçilər də dayanmadan bunu paylaşırlar. Əslində, istəmədən, şüuraltı səviyyədə neqativ halları, qayda pozuntularını təbliğ etmiş olurlar. Buradan belə nəticəyə gəlirik ki, sosial mediada pozitiv xəbərlər yox, neqativ xəbərlər daha çox yayılır, daha çox maraq cəlb edir. Düşünürəm ki, eyni təbliğatı müsbət hallar üzərində etsək, artıq müəyyən zaman sonra bu da insanların maraq dairəsinə düşər.

– **Hazırda ölkə ərazisində "təmiz hava aylığı" keçirilir. Bu aylığın keçirilməsinə zərurət nə idi?**

– "Təmiz hava aylığı" ildə bir neçə dəfə olmaqla hər il BDYPİ və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən həyata keçirilir. İl ərzində havaya atılan zərərli qazların ümumi həcminin 85%-i nəqliyyat vasitələrinin, 15%-i isə zavod və fabriklərin payına düşür. İkinci bir statistikanı da deyim. İl ərzində nəqliyyat vasitələri tərəfindən havaya atılan dəm qazının miqdarı 800 000 tondan artıqdır. Təəssüf ki, bu gün yollarda olan nəqliyyat vasitələrinin təxminən 80%-dən çoxu istehsal ili 15-20 ildən çox olan avtomobillərdir. Bu isə, həm havanın çirklənməsinə, həm də yol-nəqliyyat hadisələri

zamanı ölüm və xəsarət faktlarının artmasına bilavasitə səbəb olan hallardandır.

– **Bəs nəqliyyat vasitələrinin utilizasiya proqramı ilə bağlı nə deyə bilərsiniz?**

– Çox istərdik ki, ən qısa müddət ərzində insanların istəyi əsasında utilizasiya proqramı uğurla həyata keçirilsin. Biz utilizasiya proqramını icra edən qurum olmasaq da, məsələyə təhlükəsizlik baxımından yanaşsaq, sürücülərimizin yeni, komfortlu, müasir təhlükəsizlik tələblərinə cavab verən avtomobillər əldə etməsi həm ekologiyaya, həm də avtoqəzaların sayına müsbət təsir göstərərdi. Çünki yol-nəqliyyat hadisələri zamanı ölüm faktına yol açan əsas səbəblərdən biri avtomobilin müasir təhlükəsizlik tələblərinə cavab verməməsi və istehsal ilinin kifayət qədər köhnə olmasıdır.

– **Bir sıra Avropa ölkəsində yollarda qayda pozuntularının aşkarlanmasında dronlardan istifadə edilir. Son dövrlər yol infrastrukturunda bir sıra yeniliklər tətbiq edilir, məhz buna görə maraqlıdır ki, ölkəmizə dron radarların gətirilməsi gözlənilirmi?**

– Bizdə də ötən illərə nisbətdə artıq bir çox qayda pozuntuları elektron formada, yəni insan amili olmadan xüsusi texniki vasitələrlə aşkar edilir. Doğrudur, gündən-günə yol hərəkəti təhlükəsizliyinə dair yeni, müasir texnologiyadan istifadə edilir. Dronlar da bunlardan biridir. Ölkəmizdə hələ ki, inzibati xətaların aşkarlanmasında dronlardan istifadə olunmur. Lakin, gələcəkdə buna zərurət yaranarsa, yəqin ki, bu məsələ müzakirə oluna bilər.

– **İlin əvvəlindən indiyədək respublika yollarında baş verən qəzaların sayında azalma müşahidə edilirmi?**

– Cari ilin dörd ayı ərzində respublika yollarında ümumilikdə 439 yol-nəqliyyat hadisəsi baş verib ki, nəticədə 212 ölüm faktı və 389 xəsarət alan şəxslər qeydə alınıb. Rəqəmləri keçən ilin müvafiq dövrü ilə müqayisə etsək, görülən tədbirlərin müsbət nəticə verdiyini və ölüm halının azalan dinamikasını görərik. Belə ki, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə bu il yol-nəqliyyat hadisələrinin sayı 73 fakt, ölüm halları 35 fakt, xəsarət halları isə 55 fakt azalıb. Qəza törədən şəxslərlə bağlı aparılan araşdırmalar göstərir ki, yol-nəqliyyat hadisəsinə sürücülük hüququ olmayan 46 nəfər, birillik sürücülük hüquq stajı olan 51 nəfər, 10 ildən yuxarı sürücülük hüquq təcrübəsi olan 171 nəfər səbəb olub.

Təəssüf doğuran məqamlardan daha biri sürücü səhlənkarlığı səbəbindən baş verən yol-nəqliyyat hadisələrində ailə üzvlərinin həlak olmalarıdır. Bu tip 15 yol-nəqliyyat hadisəsi qeydə alınıb ki, hadisə zamanı üç nəfər özünün, beş nəfər həyat yoldaşının, bir nəfər atasının, dörd nəfər oğlunun, bir nəfər isə qızının ölümünə səbəb olub.

**Könül Cəfərli**

**Mənbə:**

https://oxu.az/cemiyyet/bakida-dron-radarlar-forma-4-nomre-satan-deleduzlar-suuralti-teblig-etdiyimiz-neqativ